# İmam Əli əleyhis-salamın Müaviyənin məktubuna cavab olaraq yazdığı məktublardandır

---

<"xml encoding="UTF-8?>

İmam Əli əleyhis-salamın Müaviyənin məktubuna cavab olaraq yazdığı
.məktublardandır

Məndən Şam vilayətini istəməyinə gəldikdə (bilməlisən ki): mən dünən sənə verməyərək əsirgədiyim şeyi bu gün verən kimsə deyiləm. (Çünki mənim oranı sənə verməməyimin səbəbi sənin haqqa qarşı çıxmağın və dinə laqeydliyindir ki, həmin səbəb indi də öz yerində qalmaqdadır.) «Müharibə ərəbi yeyib (öldürərək məhv edib), qalan canları almayaq!» kimi sözlərin barəsində bil və xəbərdar ol ki, haqqın yediyi (haqq yolunda şəhid olan) kimsə cənnətə yollanıb, batil və nahaqqın yediyi kimsə (nəfsi istəkləri yolunda öldürülən) isə cəhənnəm yolunu gedir. (Hər iki halda təəssüflənmək və qəmlənmək lazım deyil.) Bizim, müharibədə və (döyüşçü) kişilər baxımından bərabər olmağımız barəsində (dediklərin də düz deyil, çünki): Sənin şəkk və tərəddüd (bir neçə günlük dünya ağalığını əldə etmək) üçün olan səy və təlaşın mənim yəqinlik və inam (axirət səadəti və xoşbəxtliyi) üçün səyimdən artıq deyil; Şam əhalisinin dünyaya hərisliyi İraq əhalisinin axirət hərisliyindən çox deyil. «Biz Əbdül-Mənaf övladlarıyıq» sözünə gəldikdə, biz də eləyik. Amma Üməyyə Haşim kimi, Hərb Əbdülmüttəlib kimi və Əbu-Süfyan Əbu Talib kimi deyil. (Burada «mən də sənin kimi deyiləm» demək əvəzinə işarə ilə belə buyurdu:) Mühacir (Məkkədən Mədinəyə hicrət edən) əsirlik zəncirindən azad olan kəs kimi deyil. Nəsəbi pak olan da (həmin pak nəsəbə) yapışdırılmış kimi deyil. Nə danışıq və işləri düz olan, yalançı və pis əməlli kimidir, nə də mömin və dinə sığınan, münafiq və ikiüzlü kimi. Həqiqətən keçib cəhənnəm oduna düşən atasının (yaxud qohumlarının) yolunu davam etdirən övlad nə pis övladdır! (Sən

pis övladsan ki, küfr, şirk, yalançılıq və ikiüzlülük nəticəsində ilahi əzaba düçar (!olan keçmişlərinin yolunu davam etdirirsən

Bütün bu fəzilət və böyüklüklərdən əlavə nübuvvət və peyğəmbərlik fəziləti və şərəfi də bizim əlimizdədir. (Peyğəmbər biz Bəni-Haşimdən göndərilib.) Biz onun vasitəsi ilə hörmətlini xar, xar olanı isə hörmətli etdik. (Səadət və xoşbəxtlik düşmənlərini məhv edərək onu istəyənlərə dünya və axirət əzab və çətinliklərindən nicat verdik.) Allah ərəbi dəstə-dəstə öz dininə daxil edəndə, bu ümmətdən (bir dəstə) meyl və rəğbətlə, (digər bir dəstə isə) naçarlıqdan təslim oldu. (İslamı çıxılmaz vəziyyətdə qalıb qəbul etdilər.) Siz (dünyaya) məhəbbət və ya (öldürülməkdən) qorxu səbəbindən dinə daxil olan kəslərdən idiniz. (Bu) o vaxt (baş verdi) ki, qabaqda gedənlər (İslama səmimiyyətlə) tabe olduqları üçün qalib gəlmişdilər və ilkin Mühacirlər fəzilət və böyüklüklərinə görə getmişdilər (və özlərinə şirk və küfrdən nicat vermişdilər). Bəs (indi ki, sənin vəziyyətin belədir) Şeytanın səndən bəhrələnməsinə və (onun) sənə yol tapmasına imkan vermə. (Şeytana tabe olub dalınca düşərək bu cür çirkin və nadürüst sözlər yazma, Allahın və Onun Peyğəmbərinin hökmlərinə tabe ol!) Salama layiq kimsəyə salam !olsun